Tarix və onun problemləri, №4 2009

ELMAN PAŞAYEV

# ŞEYXƏLI XANIN RUSIYA MÜSTƏMLƏKƏÇILIYINƏ QARŞI ÜSYANININ SON MƏRHƏLƏSI

Çar Rusiyası XIX yüzilliyin lap əvvəlində Cənubi Qafqazda ilk genişmiqyaslı istilaçı müharibəsini – Qacarlar səltənətinə qarşı 1804-1813-cü illər hərbi kompaniyasını uğurla başa vursa da yeni qəsb olunmuş Şimali Azərbaycan torpaqlarında müstəmləkəçilərin həsrətində olduqları dincliyin bərqərar olmasına hələ çox var idi.

Müstəmləkəçilərə qarşı Şimali Azərbaycanın müxtəlif bölgələrində xarakter, miqyas və gücünə görə fərqlənən çıxışların baş verməsi bir sıra amillərlə şərtlənirdi. Əvvəla, təcavüzkar Romanovlar sülaləsinin istilaçı müdaxiləsi nəticəsində səltənət və var-dövlətini itirmiş köhnə iqtidar sahibləri - xanlar, bəylər və başqaları heç bir vəhclə bununla barışmaq istəmir, itirdiklərini geri almaq üçün bütün imkan və vasitələrini işə salır, silaha sarılır, işğalın özləri üçün ağrılı nəticələrini mümkün qədər tez aradan qaldırmağa çalışırdılar.

Digər tərəfdən hətta siyasətlə maraqlanmayan və ya bundan çox az baş çıxaran ən infantil kütlələr belə tezliklə müstəmləkə rejiminin bütün "gözəlliklərini" öz üzərilərində hiss edib onun əsil mahiyyətini başa düşdülər. Yeni ağaların sonsuz acgözlüyü, yerli əhalinin özəl xüsusiyyətlərinə məhəl qoymaması, müsəlmanlara qarşı amansızlığı geniş əhali kütlələri içərisində kəskin narazılıq doğurmaya bilməzdi.

Bir sözlə, Şimali Azərbaycanda rus müstəmləkəçilərinə qarşı çevrilən hərəkatın ən mühüm törədici səbəbi ilk növbədə rusların özü, onların burada qurduqları, yerli xüsusiyyətlərlə hesablaşmayan müstəmləkə rejimi idi.

Lakin bütün bunlarla yanaşı Şimali Azərbaycan kimi mühüm regiondan gözünü çəkməyən Qacarlar səltənətinin bu proseslərə müdaxilə etmədiyini söyləmək də doğru olmazdı. Amma əminliklə qeyd etmək olar ki, Şimali Azərbaycanda artıq bu dövrdə rus istilasına qarşı geniş miqyas almış azadlıq hərəkatının başlıca səbəbləri də, əsas hərəkətverici qüvvələri də elə buranın özündə idi. Qacarlar amili bu proseslərdə ən yaxşı halda üçüncü-dördüncü dərəcəli rol oynayırdı.

Rusiya işğalına qarşı mübarizədə keçmiş Quba və Dərbənd xanı Şeyxəli xan Fətəli xan oğlunun fəaliyyəti xüsusi yer tutur. Həmin dövrün rus tarixçilərindən və məmurlarından tutmuş sonrakı illərin tarixçilərinə qədər hamı onu "xain", "quldur", "rəzil düşmən" və bu kimi digər ifadələrlə xarakterizə etmişlər. Romanovlar sülaləsi hakimiyyətinin üzvü olmuş hərbçilərin və məmurların, habelə çar xəzinəsindən dolanan saray tarixçilərinin mövqeyi hər halda başa düşülən və izah olunandır. Ancaq təəssüf ki, Şeyxəli xana verilən bu qiymət bir sıra çağdaş tarixçilər, xüsusilə Azərbaycan tarixçiləri tərəfindən təkrar olunmuşdur. Hətta o, Azərbaycan xalqının "nifrət etdiyi keçmiş feodal" adlandırılmışdır (10, 127).

Qeyd etmək lazımdır ki, 1809-1810-cu illərdə Şeyxəli xanın başçılıq etdiyi Quba üsyanı yatırıldıqdan sonra o, Dağıstana, Akuşaya geri çəkilməyə məcbur olmuş, orada Dərbənd və Quba ilə sıx əlaqələr yaratmışdı. O, rus gözətçi məntəqələrinə, hərbi yükləri daşıyan dəstələrə hücumlar təşkil edir, güclü partizan hərəkatı formalaşdırmağa cəhd göstərirdi. Dərbənd şəhəri ilə Şeyxəli xanın əlaqələri xüsusilə əhəmiyyətli idi. Ona görə ki, Dərbənd vasitəsilə Şeyxəli xan İranla və Şirvan xanı Mustafa xanla daim gizli ünsiyyət saxlaya bilirdi. Bu işdə Dərbənd və İran tacirləri əsas rol oynayırdılar. Onlar İrandan göndərilən maddi köməyi Şirvana və Dərbəndə gətirərək lazımi adamlara verib

qəbz alır, sonra isə həmin qəbzi Təbrizdə Abbas Mirzənin nümayəndəsinə təqdim edirdilər (9).

Dərbəndin özündə əhali işğal orqanlarının özbaşınalığından bərk narazı idi. 1813-cü ildə şəhərdə vəba xəstəliyinin yayılması vəziyyəti daha da gərginləşdirmişdi. İl ərzində şəhərin 423 sakini bu xəstəlikdən vəfat etmişdi. Bütün bunlardan öz narazılığını dinc yolla bildirmək, Dərbənd komendantı Buxvostov və onun müavini Lulludakidən çara şikayət ərizəsi tərtib etmək üçün əhali Molla Seyid Zəkinin çağırışı ilə Dərbəndin mərkəzi məscidinə toplaşdı. Buna cavab olaraq komendant silaha əl atdı və əhaliyə zor tətbiq edərək onları dağıtdı. Molla Seyid Zəki həbs olunaraq dərbəndlilərin gözü qarşısında dar ağacından asıldı (11, 154-156).

Azərbaycanın Dağıstana qədər olan bütün ərazisi rusların tam nəzarətində olsa da Şeyxəli xanın dəstələrinin qəfil hücumları rusları daim qorxu altında saxlayırdı. Təsadüfi deyil ki, A. Yermolov 1819-cu ildə rusların Qafqaz xətti ilə Dərbənd arasında etibarlı əlaqəsinin olmadığını etiraf etmək zorunda qalmışdı (11, 157).

Dağlıları mübarizədən yayındırmaq üçün ruslar Şimali Qafqazda çox qalmayacaqları, yalnız xristianlar yaşayan əraziləri əllərində saxlayacaqları barədə şayiələr yayırdılar. 1818-ci ildə Sunja xəttinin və Qroznı qalasının tikilməsi dağlıların bu şayiələrə olan son inamını da qırdı. Artıq Dağıstan hakimləri rusların hər vəhclə Qafqazda möhkəmlənmək niyyətində olduğunu başa düşürdülər. Ona görə də Şeyxəli xanın çoxdan etdiyi təklifə uyğun olaraq Avar, Qaraqaytaq, Akuşa, Mehtula, Qazıqumux hakimləri ittifaq bağlayaraq ruslara qarşı birgə çıxış etməyi qərara aldılar. Döyüşəcək qüvvələrə bilavasitə başçılıq Şeyxəli xana həvalə olundu. Bütün bunlardan xəbər tutan rus qoşunlarının Qafqazdakı baş komandanı A. Yermolov general Pestelə Qubadan Dərbəndə qoşun yeritməyi, sonra isə Akuşa və Qaraqaytağı nəzarətə götürməyi əmr etdi. Pestel Qaraqaytağa daxil olub Başlı kəndini tutdu. Bu hərəkət ruslara baha başa gəldi. Şeyxəli xanın dəstələri sürətli manevrlərlə Pestelin Dərbəndlə əlaqəsini kəsdilər. 1818-ci il oktyabrın 23-24-də baş verən döyüşlərdə ruslar biabırçı məğlubiyyətə uğradılar. Hətta Şeyxəli xanın göndərdiyi bir dəstə Qubanın yaxınlığına qədər irəliləyə bilmişdi. Bundan sonra Pestel Dərbəndə geri çəkildi. Ağır məğlubiyyətdən qəzəblənən ruslar Başlıdan olan və Dərbənddə girov saxlanılan 17 nəfəri edam etdilər (2).

Başlı məğlubiyyəti rus komandanlığını olduqca narahat etdi. Qroznıda olan A. Yermolov təcili Tərkiyə gələrək orada böyük qüvvə cəmləşdirdi. Yenidən Başlıya hücum edən ruslar 1818-ci ilin noyabrında əhalisi qaçmış kəndə daxil oldular. Onlar evləri, heyvanlar üçün tədarük edilmiş saman və digər yem ehtiyatını yandırdılar. Quyularda saxlanılan ərzaq məhsullarını tapıb talan etdilər (2). Bununla kifayətlənməyən rus qoşunları geri qayıdarkən yolüstü Şeyxəli xana kömək göstərən digər kəndləri də eyni şəkildə cəzalandırdılar (4).

Ümumilikdə, 1818-1820-ci illər ərzində ruslar Mehtulanı, Tabasaranı, Qaraqaytağı, Akuşanı, habelə Qazıququğu işğal etdilər və Şeyxəli xan dağlıların köməyindən məhrum olub, ucqar yerlərdə gizlənmək məcburiyyətində qaldı.

1819-1820-ci illər ərzində general Yermolov Şimali Azərbaycanın başqa yerlərində olduğu kimi Dərbənddə də "təmizləmə" tədbirləri həyata keçirdi. 1819-cu ilin avqustunda Şeyxəli xana kömək etməkdə təqsirləndirilən 8 nəfər buradan Həştərxana sürgün edildi (5). Onların içərisində sonralar dünya şöhrətli alim kimi tanınacaq Mirzə Kazım bəyin atası Molla Hacı Kazım bəy də var idi. Məhz orada 1823-cü ildə 12 yaşlı Mirzə Kazım bəy şotland missionerlərinin təsiri altında xristianlığın presvetirian məzhəbini qəbul etmişdir.

1820-ci il yanvarın 20-də A.Yermolov podpolkovnik Mişenkonun sədrliyi altında "hərbi komissiya" yaratdı (2). Həmin komissiyanın əsas vəzifəsi Şeyxəli xanla hər hansı

əlaqədə olan adamları tapıb cəzalandırmaq idi. Repressiyalar və Dağıstanda böyük sayda rus qoşunlarının yerləşdirilməsi Şeyxəli xanın mübarizəni davam etdirmək imkanlarını son dərəcə məhdudlaşdırdı. O, 1822-ci ilin mayında ağır xəstəlikdən sonra vəfat etdi. Rus hərbçilərinin yazışmalarından Şeyxəli xanın dünyasını dəyişdiyi günün mayın 20-25-i arasında olduğunu söyləmək olar (7).

Şeyxəli xanın adı ölümündən sonra da rusları qorxu altında saxlayır, onların canına vəlvələ salırdı. A. Yermolov onun ən yaxın silahdaşlarından olan İmanqulu bəyin, Bağır bəyin, Səfər Əli oğlunun və Süleymanın Şimali Azərbaycanın yaxınlığında belə görünməməsini tələb edirdi (8).

1824-cü ildə A. Yermolov Quba bəylərinin rəncbərlərə və məskunlaşmış torpaqlara malik olmaq hüququnu araşdıran komissiya təsis etdi (6). Komissiyanı yaratmaqda əsas məqsəd Şeyxəli xana kömək etmiş bəyləri onlara verilən hüquqlardan məhrum etmək idi. Komissiya işini qurtarıb "Bəylərin idarəçiliyi altında olan Quba əyaləti kəndlərinin siyahısı"nı A.Yermolova təqdim etdi. Baş komandan həmin siyahıda olan və Şeyxəli xana kömək etməkdə şübhəli bilinən bəyləri sahib olduqları kəndlərdən məhrum etmək barədə göstəriş verdi (1).

Beləliklə, göstərmək lazımdır ki, Gülüstan müqaviləsindən sonra Rusiya işğal orqanları ilk növbədə Azərbaycan dövlətçiliyinin son qalıqlarının məhv edilməsi, nüfuzlu Şimali Azərbaycan hakimlərinin aradan götürülməsi, onların tabeliyində olan ərazilərin bütünlüklə nəzarət altına alınması siyasətini aparırdılar. İkinci əsas vəzifə kimi ağa və bəy silkinə mənsub olan adamların, habelə din xadimlərinin mülkiyyət və siyasi hüquqlarının məhdudlaşdırılması həyata keçirilirdi. Eyni zamanda işğal edilmiş ərazilərdə əhalini tam itaətdə saxlamaq üçün hərbi-idarəçilik sistemi möhkəmləndirilirdi. Bütün bunlar xalqın siyasi, dini və mülkiyyət hüquqlarının tapdanmasına, güzəranının pisləşməsinə səbəb olurdu.

### *ƏDƏBIYYAT:*

1.Azərbaycan DTA, f. 75, siy.1, iş 6, v. 1,2.
2.АКАК, т.VI, ч. 2, док. 130, Тифлис, 1875.
3.АКАК, т.VI, ч. 2, док. 131.
4.АКАК, т.VI, ч. 2, док.137.
5.АКАК, т.VI, ч. 2, док. 242.
6.АКАК, т.VI, ч. 2, док.244
7.АКАК, т.VI, ч. 2, док. 247.
8.АКАК, т.VI, ч. 2, док. 248.
9.АКАК, т.VI, ч. 2, док.258
10.Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX в.. М., 1969.
11.Козубский Е.И. История города Дербента. Темир-хан-Шура, 1906.

**ЭЛЬМАН ПАШАЕВ**

## ПОСЛЕДНИЙ ЭТАП БОРЬБЫ ШЕЙХ АЛИ ХАНА ПРОТИВ РОССИЙСКОГО КОЛОНИАЛИЗМА

В статье освещается деятельность Губинского хана Шейх Али хана против российского колониализма в1813-1822 годы. На основе фактов автор отмечает, что в тот период Шейх Али хан осуществил руководства всеми силами, которые восстали против российских захватчиков не только в Губинском ханстве, но и в Дагестане. Широкомасштабные военно-карательные операции российских войск в 1818-1820 годы против восставших, а также мирного

населения лишили Шейх Али хана активной поддержки народа, и с его кончиной в мае 1822 года восстание прекратилось.

**ELMAN PASHAYEV**

## THE LAST OF SHEIKH ALI KHAN `S FIGHT AGAINST THE RUSSIAN COLONIZATION

In the article activity of the Gubinian khan Sheikh Ali khan against the Russian colonialism during the years of 1813-1822 has been elucidated. On the basis of the facts the author notices that during this period Sheikh Ali khan carried control in every way which had risen against the Russian aggressors not only in Guba khanate, but also in Dagestan. Large-scale military-retaliatory operations of the Russian armies during the years of 1818-1820 against the rebels and the peaceful population also had deprived Sheikh Ali khan of active support of the people, and with his death in May, 1822 revolt was suppressed.

***Rəyçilər: t.e.n.R.Hüseynli, t.e.d.S.A.Məmmədov.***

***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın yeni tarixi şöbəsinin 14 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***